Tarix və onun problemləri, №3 2009

ELMİRA MƏMMƏDOVA
*tarix elmləri namizədi*
GÜLTƏKİN ALLAHVERDİYEVA

# XANLIQLAR DÖVRÜNDƏ İPƏK DİPLOMATİYASI

XVIII əsrin II yarısında Azərbaycan xanlıqlarının digər dövlətlərlə diplomatik əlaqələrinin qurulmasında ipək ön sıralardan birində idi. Həmin dövrdə Qərb dövlətlərinin, Rusiya və Türkiyənin daim Azərbaycana və onun ipəyinə olan tükənməz marağı çox böyük idi. Təsadüfi deyil ki, Azərbaycan çar Rusiyası tərəfindən işğal edildikdən sonra inkişaf etdirilən ən mühüm sahə, məhz ipəkçilik idi. Həmin dövrdə buraya səyahət adı ilə Rusiya hökuməti tərəfindən göndərilmiş tədqiqatçılar – akademik S.Q.Qmelin, M.Biberşteyn, İ.Lerx və başqaları bu sahədə xeyli tədqiqatlar aparmışlar və bu da həmin sahənin aparıcı rolunu göstərir. (11, s. 73) Həmin məsələ ilə bağlı 1796-cı ildə rus qoşunlarının Azərbaycana yürüşü zamanı iştirakçı P.Q. Butkovun müxtəlif materilları, sənədləri o, cümlədən, Qafqaz hakimlərinin rus hakimiyyət orqanları ilə məxfi yazışmaları, memuarlar və s. mənbələri də Azərbaycan ipəkçiliyinin Rusiya iqtisadiyyatının tələbatına marağını göstərir.

Həmin problemlə əlaqədar rus tarixçiləri S.M.Solovyev, M.D.Çeçulin və s. görkəmli tədqiqatçılar bu problemi işıqlandıraraq xanlıqlar dövründə Rusiya iqtisadiyyatının Azərbaycanla əlaqələrini vurğulayırlar.

İ.Hacinskinin «Qubalı Fətəli xanın həyatı», A.Bakıxanovun «Gülüstani-İrəm», Hacı Seyid Əbdülhəmidin «Şəki xanlarının xələfləri və səfərləri», Kərim ağa Fatehin «Şəki xanlarının qısa tarixindən», Mirzə Adıgözəl bəyin «Qarabağnamə», Əhməd bəy Cavanşirin «1747-1805-ci illərdə Qarabağ xanlığının mövcudluğu tarixindən» və s. tipli əsərlər çox qiymətli əsərlərdə ipəyin Rusiya-Azərbaycan münasibətlərində aparıcı rolu göstərilir. XVIII əsrin II yarısında Osmanlı imperiyasının Azərbaycan xanlıqları ilə münasibətlərində ipəkçiliyin aparıcı rolu Türkiyə tarixçiləri-Oxçu Yəhya, Danişmənd İsmayıl Hami, Zəki Vəlidi Toqan, Yusif Axçur və başqaları göstərir. (4, s.15) Lakin ilk dəfə bu dövrü Leviatov böyük bir monoqrafiya ilə Azərbaycanını öyrənərkən ona qədərki ədəbiyyatlarda toplanan materialları ilə zənginləşdirmişdi. XVIII əsrin II yarısında ipək diplomatiyasının ayrı-ayrı hissələri görkəmli şərqşünası İ.P.Petruşevski tərəfindən də işıqlandırılmışdır. Qafqazşünaslardan N.A.Smirnov, A.V.Fadeev, R.M.Məhəmmədov və başqaları Azərbaycan tarixinin bu dövrün ipək diplomatiyasını nisbətən işıqlandırmışlar. A.Hüseynov, Q.M.Petrov, O.P.Petrov və başqaları da bu sahədə müstəsna xidmətləri olan tarixçilərdəndir. (7, s.15) H.Abdullayevin əsərlərində xanlıqlar dövründə ticarət, ipək diplomatiyası və s. haqqında bolluca informasiyalar mövcuddur. Son illərdə nəşr olunmuş kitablardan biri Toğrul İsmayılın rus dilində yazdığı «Историческауа географиуа Азербайджана в XVII-XVIII вв.» adlı əsəridir. (4, s.24) Azərbaycan xanlıqları haqqında məlumatlar A.V.Suvorovun casusları tərəfindən də toplanılıb. Belə ki, o, Həştərxanda Azərbaycan və Gilan üzərinə yürüşə başlamaq üçün hazırlıq işləri görən vaxt (1780-1781) onun casusları xanlıqların zəif nöqtələri haqqında məlumat toplayırdılar. Xəzər dənizi hərbi donanmasının başçıları kapitan Xanikov, R.Şişkin, freqat komandir F.Akleçevin adlarına da çox saylı raportla var ki, bu da mənbə baxımından çox qiymətlidir. Analoji raportlar sırasına Qafqazdakı rus qoşunlarının komandanları İ.De Medem, R.S.Potyomkin, Tekelli və Qudoviçə təqdim olunan raportları da misal gətirmək olar. (7, s. 25, 30)

Azərbaycandan XVIII əsrin II yarısında Şərqə və Qərbə müxtəlif mallar ixrac olunurdu. Xarici bazara ixrac olunan mallar içərisində ipək, pambıq, ipək parçalar, meyvə quruları, balıq, ikra və s. əsas yer tuturdular. Bu mallar içərisində ipəyin rolu daha böyük idi. (9, s.39) Çünki bəhs edilən dövrdə ipək dünya bazarında çox yüksək qiymətləndirilirdi. Ona görə də Azərbaycan ipəyi uğrunda çox qızğın mübarizə gedirdi. Bu mübarizədə Rusiya və İran daha fəal idilər.

1770-1772-ci illərdə qeydə alınan rəqəmlərə görə ipəyin əsas hissəsi Türkiyəyə ixrac edilirdi. Lakin getdikcə Rusiyaya ixrac olunan ipəyin miqdarı artır, Türkiyəyə isə ixrac azalırdı. Bunun başlıca səbəblərindən biri şimal-şərqi Azərbaycan torpaqlarının Quba xanlığı tərəfindən birləşdirilməsi və onun Rusiya meyilli siyasət yeritməsi ilə bağlı idi. İpəkçiliyin əsas mərkəzi Şamaxı xanlığı idi. Cənubi Azərbaycanda isə Gilan ön sırada idi. Güclü dağıntıdan sonra XVIII əsrin 60-80-cı illərində Şamaxı xanlığı yenidən öz əvvəlki qüdrətini bərpa etdi. Mənbələrdə Gəncə şəhərinin də adı ipəkçiliyin mərkəzi kimi çəkilir. İpəyin nəqli Azərbaycandakı dəniz limanlarının demək olar ki, hamısından həyata keçirilirdi. İpəyin dəniz ilə nəqlindən əlavə Qızlar yolu ilə də nəql aparılırdı. İpəyin nəqli Rus hakim orqanları tərəfindən himayə olunduğuna görə onun ixracat miqdarı da artırdı. Rusiya hakimiyyəti hətta bəzi vaxtlarda ipəyə nəzərdə tutulan vergini belə ləğv edirdi. Şimali Azərbaycandan fərqli olaraq Cənubi Azərbaycanda vəziyyət bir qədər fərqli idi. Şimali Azərbaycanda ipək ticarəti əsasən Rusiyanın əlində olsa da, Cənubi Azərbaycandan ipək ticarətinə Qərb dövlətləri başçılıq edirdi. (3, s.20)

Rusiyada ipək emalının əsas mərkəzi Moskva şəhəri sayılırdı. Moskvadan sonra ipək emalı daha çox Həştərxan və Kazan şəhərlərində həyata keçirilirdi. XVIII əsrin II yarısında Moskva şəhərində 50 ipək emalı fabriki fəaliyyət göstərirdi. (13, s.50) Onlara orta hesabla 3 min pud ipək lazım olurdu ki, yalnız Şamaxıdan idxal olunan xam ipək bütün bu fabriklər üçün yetərli idi. Xam ipəkdən əlavə Azərbaycanda Rusiyaya hazır ipəkçilik məmulatları da ixrac olunurdu. Azərbaycan ipəyinin əsas hissəsi əvvəllər ingilislər tərəfindən Rusiya və Türkiyə vasitəsilə Avropaya gətirilirdi. XVIII əsrin II yarısından etibarən onların yerini rus tacirləri aldı. Xam ipək Rusiyaya həmişə böyük miqdarda göndərilirdi. 1763-cü ilin məlumatlarına görə xam ipəyin Rusiyaya ixracı ümumi ixracatın 64%-ni təşkil etmişdir. Digər məlumatlara görə Azərbaycandan Rusiyaya ixrac olunan malların 80%-ni ipək, 7%-ni isə pambıq təşkil etmişdi. A.Semyonovun məlumatlarına görə 1758-1760-cı illərdə Azərbaycan-Rusiya ixracatının 3/2-in məhz xam ipək təşkil etmişdi. (11, s.75) Göstərilən rəqəmlər müxtəlif olsa da, bir şey dəqiqdir ki, Azərbaycan-Rusiya ticarətində əsas yeri ipək tuturdu. Rusiyaya ixrac olunan ipəyin miqdarı haqqında həmin dövrün səyahətçilərindən də bəzi məlumatları öyrənmək olar. Bir məlumata əsasən 1767-ci ilin yazında Bakıdan Həştərxana 2000 rud ipək ixrac olunmuşdur. Digər rəsmi məlumata görə 1765-ci ilin yaz və payız aylarında Bakıdan Rusiyaya 3 min pud xam ipək daşınmışdı.

Rusiya hökumətinin rəsmi məlumatlarına görə Quba və Şamaxı xanlıqları arasında gedən müharibə bir müddət Şamaxıdan Bakıya, oradan isə Rusiyaya xam ipək daşınmasının miqyasını azaltdı. Lakin Şamaxının Qubaya birləşdirilməsindən sonra xam ipəyin Həştərxana gətirilməsi yenidən kütləvi xarakter aldı. 1778-1781-ci illərdə xam ipəyin Həştərxana ixracı belə idi: Ənzəlidən 3705, Bakıdan 6547, Dərbənddən 103, Salyandan 145, Mazandarandan 291, Cavaddan isə Kür çayı vasitəsilə 26 pud xam ipək Həştərxana gətirilmişdi. 1781-ci ilin sonuna 10 gün qalmış Bakıdan Həştərxana xam ipək ixracı 1484,1 pud təşkil etmişdi ki, bu da 89055 rubla bərabər idi. 1784-cü ilin sentyabr ayında vəziyyət bir qədər fərqli idi. Rusiyaya ixrac olunan malların ümumi miqdarı 104240 rubla bərabər idi ki, bunun da 65520 rublu xam ipəyin payına düşmüşdü. Xam ipəyin su yolu ilə daşınması qış aylarından başqa bütün aylarda həyata keçirilirdi.

Çünki qış aylarında Həştərxan limanı buz bağlayırdı və gəmilərin bu limana daxil olması mümkün olmurdu. Belə olan halda ipək quru yolu olan Qızlar ilə daşınırdı. 1777-ci ilin oktyabr ayı ilə dekabr ayları arasında Azərbaycandan quru yolu ilə Həştərxana 3 min pud xam ipək gətirilmidi. Çulkovun məlumatlarına görə, XVIII əsrin 80-ci illərinin əvvəlləri üçün xam ipək ixracatı 30 min pud təşkil edirdi. (2, s.301) Feodal dağınıqlığı, Şimali İran və Azərbaycanda müharibə şəraitində ipək ticarəti ilə məşğul olan tacirlər ölkəni tərk etməyə başladılar. İxracat azalmağa başladı. Kərim xan Zəndin qələbəsi ilə sona çatan müharibədən sonra siyasi vəziyyətin sabitləməsi və yaxşılaşması ilə ipək ticarəti də yüksəlməyə başladı. Aydındır ki, xam ipəyin qiyməti onun növündən asılı idi. Həmçinin qiymətlərin müxtəlif vaxtlarda qalxıb-enməsi tendensiyası da var idi. Qiymətlərin artımı müxtəlif səbəblərlə izah olunurdu. XVIII əsrin 60-cı illərində Rusiyada 60 böyük ipəkçilik manufakturası olduğu halda, 90-cı illərdə bu qərəm artıq 357-ə bərabər idi. Xam ipəyin Qızlar qaçaqmalçıları tərəfindən böyük miqdarda ölkədən kənara çıxartmaları onun qiymətinə də təsir göstərdi. Belə ki, 1768-ci ildə ipəyin qiyməti qalxaraq Şəki və Şamaxıda 50-70 rubla bərabər oldu. (11, s.77)

Qiymətərin qalxmasına gömrük tarifləri də təsir göstərirdi. Bu sadaladığım əlamətlərdən əlavə xam ipəyin alınma dəyəri, istehsal dəyəri, ümumi əmək şəraiti, vaxt və s. amillər də qiymətə təsir göstərirdi. S.A.Tuçkovun verdiyi məlumatlara görə Azərbaycandan Həştərxana ipək ixracı, bəzən Avropadan Rusiyaya ipək ixracından baha başa gəlirdi. Bir qədər əvvəl qeyd etdiyim kimi, xam ipəyin qiymətinə qaçaqmalçılıq da təsir göstərmişdi. Lakin mən onun bir tərəfini vermişdim. Digər maraqlı tərəfi isə onda idi ki, Rusiyadan qaçaqmalçılıq yolu ilə gətirilən gümüşün demək olar ki, hamısına ipək alınırdı. 1767-ci ildə qeydə alınan məlumata görə, Rusiyadan Şamaxı və Şəkiyə bir cəhdə 105 min rubl gümüş pul gətirilmişdi ki, bunun da hamısına xam ipək alınmışdı. Xam ipəyin bir pudu həmin yerlərdə orta hesabla 36-48 rubla bərabər idi. Həştərxan məxfi ekspedisiyasının həmin dövr üçün olan məlumatlarına görə hər il Azərbaycandan Rusiyaya 600 min rublluq qaçaqmalçılıq yolu ilə alınmış xam ipək gətirilirdi. Bu qərəm həmin dövr üçün elə də kiçik rəqəm deyildi. İndisə digər bir maraqlı məsələyə toxunaraq; İpək ticarəti ilə məşğul olan tacirlərin milli mənşəyi məsələsinə. Çox saylı faktlar göstərir ki, ipək ticarəti ilə məşğul olan tacirlərin əksəriyyəti azərbaycanlılar, ermənilər, gürcülər və farslar olmuşlar. Bu ticarətdə hindlilər də bir qədər rol oynayırdı. Faktlar göstərir ki, avropalıların bu ticarətdə iştirakı daimi deyildi.

XVIII əsrin 30-40-cı illərində vəziyyət başqa cür idi. İpək ticarətində ingilis, hollan və s. avropalılar da iştirak edirdi və çoxsaylı avropa soyadlarına rast gəlmək mümkün idi. 1749-cu ildən etibarən bu başqa xarakter aldı. Avropalılara Rusiya vasitəsilə Cənubi Qafqazla ticarət etmək qadağa edildi. İpək ticarətində əsas yerlərdən birini azərbaycanlılar tuturdu. (12, s.51) Onlar bu ticarətdən əldə etdikləri gəlirin demək olar ki, hamısını torpağa qoyurdular. Azərbaycan tacirləri müflisləşəcəklərindən qorxaraq öz kapitallarını gizlətməyə çalışırdılar. XVIII əsrin II yarısında ipək ticarəti ilə Bakı, Şamaxı, Şəki, Quba, Gəncə, Salyan tacirləri məşğul olurdular. 1768-ci ilin avqustunda tacir Abdullanın başçılığı ilə 60 tuyuq xam ipək Salyandan Həştərxana göndərilmişdi. Mirzə Kəlbəli adlı bir tacir Həştərxana 100 tuyuq xam ipək gətirmişdi.

Azərbaycanlı tacirlərdən Cəfər Əhmədov, Haqverdi Mirzəbəyov, Məmmədəli Vəliyev, Abdulla Yusifov, Hacı Əli Bağırov, Hümbət Bağırov, Hacı ağa Hüseynəliyev, Ağa Hüseyn, İsmayıl Əlibaba, Hacı Mirəli, İsmayıl Hacıyev, Hacı Hüseyn və başqalarını misal gətirmək olar.

Məlum olan faktlardan bəlli olur ki, XVIII əsrin II yarısında ipək ticarətində ermənilər mühüm mövqelərdən birinə sahib idilər. Dilimizi, adət-ənənələrimizi yaxşı mənimsəyən ermənilər Azərbaycanın hər yerində ticarətlə məşğul olurdular. Onlar hələ

XVI əsrin ortalarından Rusiya, Azərbaycan, Avropa ticarətində mühüm rol oynamağa başlamışdılar. Erməni tacirlər əsasən ipək ticarəti ilə məşğul olurdular. Onlar Azərbaycan ipəyini nəinki Moskvaya çatdırırdılar, hətta Moskvadan da Avropaya, əsasən də Hollandiyaya ixrac edirdilər. Əldə edilmiş gəlirlər hesabına isə onlar öz mənfur siyasətlərini, iddialarını realaşdırmağa çalışırdılar.

Qeyd edilən dövrdə Hindistan tacirləri də Azərbaycanda ipək ticarəti ilə məşğul olurdular. Lakin bu ticarətin miqyası çox kiçik idi və elə də böyük əhəmiyyət kəsb etmirdi. Ona görə də bu məsələ üzərində geniş dayanmağa ehtiyac yoxdur.

XVIII əsrin 60-70-ci illərində və sonralar ipək ticarəti öz bir nömrəli əhəmiyyətini hələ də itirməmişdi. Ona görə də xam ipək ticarəti üstündə qüvvələr arasında qızğın mübarizə gedirdi. Bu mübarizənin mərkəzində Rusiya dayanırdı. O Şamaxı və Gilan ipəyi üzərində öz inhisarçılığını qurmaq istəyirdi. Lakin bu yolda ona azərbaycanlı və gilanlı tacirlər mane olmaq istəyirdilər. Rus və Azərbaycan tacirləri arasında ciddi rəqabət gedirdi. Rusiya həmçinin erməni və hindli tacirlərin kapitalına qarşı da müvafiq addımlar atmalı idi.

Bazar münasibətlərinin inkişafı nəticəsində xanların pula qarşı ehtiyacları artdı. Onlar monetar siyasət yeritməyə başladılar. Belə ki, xanlar idarə etdikləri ərazidən gümüş pulların kənara çıxarılmasına imkan vermirdilər. Onlar bu məqsədlə ərazidə gümüş ehtiyatı yaratmaq istəyirdilər. Şəki xanı öz tacirlərinə ciddi tapşırıq vermişdi ki, ipəyi ancaq gümüş pullarla satsınlar. Xanlar çalışırdılar ki, idarə etdikləri xanlara kifayət qədər çox xarici pul gətirilsin. Xanlar ipəyi ancaq pulla dəyişdirmək əmrini vermişdi.

Azərbaycan xanlarının monetar siyasəti merkantelizm siyasəti yeridən Rusiya üçün sərfəli deyildi. Çünki bu siyasətə əsasən Rusiya alınan malara görə öz mallarını verməli idi, gümüş pullardan isə lazımınca az istifadə etməli idi. Rusiya hökumətinin 1764-cü il avqust ayının 2-də çıxardığı qərara görə Azərbaycan və Həştərxanda mallar pulla deyil, digər müvafiq mallarla alınmalı idi. Rusiya və Azərbaycan arasında yaranan ziddiyyət nəticəsində ipək bazarında ingilis rəqabəti artır.

Azərbaycan və Gilana xam ipək ticarəti üçün rus tacirlərindən başqa xarici tacirlər də təşrif buyururdular. İngilis tacirləri Rusiya vasitəsilə Azərbaycan ilə ticarət etmək hüququndan məhrum edilsə də, Türkiyə yolu buna imkan verirdi.

İpək bazarında xarici tacirlərin artması Rusiya üçün çox böyük zərbə idi. Çünki xarici tacirlər nəğd pulla ödəniş apardıqlarına görə Rusiya hökumətinin ipəyi öz malları ilə dəyişdirmək siyasəti uğursuzluğa düçar olurdu. Belə olan halda xam ipəyin qiyməti inanılmaz dərəcədə artdı.

Artıq belə davam edə bilməzdi və ona görə də rus tacirləri xam ipəyi baha qiymətə almaq məcburiyyətində qaldılar. Çünki belə davam etsəydi ingilis kapitalı ipək bazarında hökmranlığı ələ keçirə bilərdi.

Çar hökumətinin tapşırığı ilə bazarda ipək ticarətində yaranan ziddiyyət bütün XVIII əsrin II yarısı davam etmişdir. Bu ziddiyyətdən isə ən çox yerli tacirlər yararlanırdı.

İpək bazarında XVIII əsrin II yarısında xam ipək alınmasının başqa bir növü də var idi. Belə ki, ingilis tacirləri çalışırdılar ki, xam ipəyi birbaşa olaraq onun istehsalçılarından alsınlar. Belə olan halda onlar daha ucuz və daha keyfiyyətli ipəyə sahib olurdular. Qalıq ipək isə baha qiymətə rus tacirlərinə qismət olurdu. Lakin bir şeyi də qeyd etmək lazımdır ki, rus tacirləri də hakimiyyət orqanarından gizli olaraq ingilislər kimi xam ipəyi ipək istehsalçılarından birinci əldən alırdılar.

Qeyd etmək lazımdır ki, ipək bazarında bəzi çətinliklərə baxmayaraq bazarda hələ də ən çox alınan mal xam ipək idi. Hər iki tərəf, yəni həm alan, həm də satan tərəf bu ticarətdən xeyli gəlir əldə edirdi.

XVIII əsrin 70-ci illərində Şimal-Şərqi Azərbaycan və Gilanda ipək bazarında yerli tacirlər ilə rus tacirləri arasında qızğın mübarizə gedirdi. Hər iki tərəf zəngin ipək ticarətini öz əllərinə almaq istəyirdilər. Zəngin Azərbaycan və Gilan tacirləri öz maraqlarını qorumaq məqsədilə müxtəlif ticarət birliklərində birləşirdilər.

Belə birliklər müxtəlif yollarla yaradılırdı və müxtəlif formalar alırdı. Həştərxan qubernatorunun verdiyi xəbərlərə görə bu birliklər ipək bazarında çox mühüm rol oynayırdılar. Belə ki, onlar əvvəllər ayrı-ayrılıqda ruslara 60-70 rubla bir pud xam ipək satırdılarsa, indi bu rəqəm birliyin müəyyənləşdirdiyi qiymətə satılırdı. Bu rəqəm isə 120-170 rudl arasında müəyyən edilirdi.

İpək bazarında mühüm rollardan biri xan və onun adamlarına məxsus idi. Xan tez-tez ipək ticarətinə qarışırdı və ipəyə konkret qiymət qoyurdu. Bu qiymətdən aşağı ipəyi heç kimin aşağı qiymətə satması mümkün deyildi.

Bütün bu gətirilən faktlar ipək bazarındakı qızğın mübarizədən xəbər verir. Böyük yerli tacirlər birləşərək xam ipəyin qiymətini qaldırır və öz istəklərini xarici alıcılara sirayət etdirmək istəyirdilər. Xan və xan adamları da bazara nəzarət etməyə çalışırdılar, lakin birincilik təbii ki, böyük tacirlərin əlində idi.

Rusiya hakimiyyət orqanları ipək bazarında onlar üçün yaranmış əlverişsiş vəziyyətlə barışmaq istəmirdilər. Ona görə də ticarətin bir sıra hiyləgərliklərindən onlara xəbər verilməyə başlanıldı. Onlara yerli tacirlərə beh verməyi qadağan etdilər. Lakin bütün bu tədbirlərə baxmayaraq ipək bazarındakı əvvəlki vəziyyət dəyişməz olaraq qaldı.

Xam ipəyin satışı Azərbaycana küllü miqdarda gümüş və qızıl gəlişinə imkan yaradırdı. Bu da merkantelizm siyasəti yeridən Rusiya üçün əlverişli deyildi.

Gəlirli ipək ticarəti bazarda maraqların toqquşmasına səbəb olurdu. İpək bazarında rus və yerli tacirlər arasında ən kəskin mübarizəyə gedirdi: Yerli tacirlər birləşərək rus tacirlərini sıxışdırmağa başladılar və qiymətlərə təsir göstərdilər; yerli tacirlər xam ipəyi birbaşa olaraq istehsalçılardan alaraq özləri üçün bazarda əlverişli şərait yaratdı; bu birləşmələr Rusiyadan gətirilən malların qiymətini aşağı salırlar, xam ipəyin qiymətini isə qaldırırdıar.

Mən «Xanlıqlar dövründə ipək biplomatiyası» adlı kurs işimi bitirdim. Bu işi işləyərkən mənim qarşıma ədəbiyyat çatışmamazlığı kimi ciddi bir maneə çıxsa da, bir neçə ədəbiyyatın köməyi ilə bu problemi aradan qaldıra bildim.

XVII əsrin II yarısında Azərbaycan ayrı-ayrı xalıqlardan ibarət idi və hər bir xanlığın özünəməxsus, xarakterik təsərrüfat sahəsi var idi. Həmin dövrün isə ən öndə gedən təsərrüfat sahəsi ipəkçilik sayılırdı. Belə ki, dünya bazarında xam ipəyə olan tələbat onun ticarətini də genişləndirdi. Bu ticarətdən hər iki tərəf, yəni həm satan tərəf, həm də alan tərəf çox böyük gəlir götürürdü. İpək ticarətinin artması onun qiymətlərinə də təsirsiz ötüşmədi. Qiymətlər get-gedə artmağa başladı.

Azərbaycan xanları isə monetar siyasət yeridərək öz xəzinələri üçün pul ehtiyatı toplamağa çalışırdılar. Bu isə merkatelizm siyasəti yeridən Rusiya üçün sərfəli deyildi.

### *QAYNAQLAR*

1.Azərbaycan tarixi. 7 cilddə. 3-cü cild. Bakı, 1999.
2.Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Б., 1965
3.Абдурахманов А. Азербайджан во взаимоотношениях с Ираном, Турцией и Россией в 20 – е годы XVIII века. Б., 1964

4.Исмайыл Тогрул. Историческая география Азербайджана в XVII-XVIII вв. Б., 2006.
5.Пириев В.З. Историческая география Азербайджана. Б., 2006.
6.Мамедов С.А. Азербайджан по источникам XV- первой половине XVIII века. Баку, 1993 г., с. 88,93
7.Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке. М, 1969.
8.Мамедова Э.К. Ханский Азербайджан в международных отношениях во второй половине XVIII века. III ümumrespublika elmi-praktik konfransının matrialları. Bakı, 2001, səh. 214-218
9.Мамедова Э.К. Место и значение Азербайджана в морской торговле во второй половине XVIII века. Jurnal "İpək yolu", 2001, № 2, səh. 34-37.
10.Mustafayev C.M. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, 2003, səh. 182, 190, 206
11.Мамедова Г.Н. Русские консулы об Азербайджане. (20-60 г.г. XVIII века), Баку, 1989 г., с. 73
12.Юхт А.И. Торговля России с Закавказьем и Персией во второй четверти XVIII в. М., 1961.
13. Юхт А.И. Торговые компании России в середине XVIII века. М., 1984.

**ЭЛЬМИРА МАМЕДОВА**
***ст. пр. АГПУ, к.и.н***
**АЛЛАХВЕРДИЕВА ГЮЛЬТАКИН**
***диссертант ГГПУ***

**«ШЁЛКОВАЯ ДИПЛОМАТИЯ В ПЕРИОД ХАНСТВ**

На основе конкретного фактического материала прослеживаются дипломатические связи азербайджанских ханств с Россий, Османской Турцией, Англией, Францией и др. государствами. В основе этих дипломатических отношений была шелковая дипломатия. Шелк и шелковое производство принесло Азербайджану мировую славу и одновременно с этим сделало его яблоком раздора между европейскими государствами. В этой борьбе политическое первенство получила Россия.

**MAMMADOVA ELMIRA**
**ALLAHVERDIYEVA GULTAKIN**

**SILK DIPLOMATION IN KHANTES PERIOD**

In the article is given material showing about the independent of Azerbaijan at the II part of the 18-the century. In the article is researched Russian – Azerbaijani an political and economic relations. It the same time is traced the interests of the England, France, Ottomans empire, Iran to Azerbaijan khanate. The struggle for Azerbaijan is finished the gain and becoming broken to pieces Azerbaijan lands between Russia and Iran at the beginning at the 19-the century.

***Rəyçilər: t.e.d.S.A.Məmmədov, t.e.n.E.Ə.Hacıyev, t.e.d.Q.Ə.Əliyev.***
***ADPU-nun Azərbaycan tarixi kafedrasının 06 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №16).***